# Cocuq Mərcanlı karvanı

## Bizdən ötrü darıxan doğma Qarabağa böyük qayıdışın başlanğıcı

**“Çingiz Qurbanov düşmənlə üzbəüz qeyri-bərabər döyüşdə bir daha Azərbaycan əsgərinin nəyə qadir olduğunu göstərdi. Təkbaşına böyük diversant qrupu ilə üz-üzə qalsa da, geri çəkilmədi, qorxmadı. Son nəfəsinə qədər vuruşdu, bir neçə işğalçını məhv etdi, şəhidlik zirvəsinə ucaldı. Biz Çingiz Qurbanovla fəxr edirik. Bütün Azərbaycan onunla fəxr edir. Bu, bir daha göstərir ki, Azərbaycan gənci, əsgəri heç vaxt bugünkü vəziyyətlə barışmayacaq”.**





Prezident İlham Əliyev ötən ilin son günlərində cəbhədə düşmən təxribatının qarşısını alarkən həlak olmuş və Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Çingiz Qurbanovun ailə üzvləri ilə görüşərək ali təltifi təqdim edərkən belə söyləyib.

Ali Baş Komandan daha sonra əlavə edib ki, aprel hadisələrindən sonra nəinki Ermənistan ordusu, hətta Ermənistan dövləti belə silkələndi, generallar rütbələrini, vəzifələrini itirdilər: *“Ermənistan cəmiyyətində panika, təşviş hökm sürürdü, bu gün də davam edir. Azərbaycan ordusu, Azərbaycan dövləti işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etdi, indi o ərazilərdə bərpa işləri aparılır. Azərbaycan vətəndaşları o torpaqlara qayıdacaqlar. Biz öz torpağımızı heç kimə verəsi deyilik. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Qarabağı məhz belə tanıyır və bu münaqişənin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapa bilər”.*

Göründüyü kimi, ölkənin taleyüklü problemləri, o cümlədən də yağı tapdağındakı yurd yerlərinin taleyi dövlət başçımızın daim diqqətindədir və çıxışlarında xalqın bu işğalla heç zaman barışmadığını, Vətənin bir qarışının da düşmənə verilməyəcəyini dəfələrlə bəyan edib. Elə həmin vətənpərvər və prinsipial mövqeyin ifadəsi olaraq 24 yanvar 2017-ci il tarixində Cəbrayıl rayonunun azadlığa qovuşmuş Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, adıçəkilən kəndin bərpası ilə bağlı görüləcək işlər çərçivəsində birinci mərhələdə 50 fərdi yaşayış evinin, məktəb binasının və müvafiq infrastrukturun tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Prezidentinin ehtiyat fondundan Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ilkin olaraq 4 milyon manat ayrılıb.

Doğrudan da, şanlı, şərəfli tarix, qürurverici, insanın ürəyini dağa



döndərən hadisədir. O ağır günlərdən, faciəvi olaylardan əvvəl – indi qəsbkar Ermənistanın yerləşdiyi dədə-baba torpaqlarımızdan, sonra qədim Qarabağdan, daha sonra ətraf rayonlardan didərgin salınmağımızdan – sonuncu köçümüzdən az qala əsrin üçdə biri qədər vaxt keçir. Bu, ürəklərdə qubar bağlayıb sağalmaz mərəzlərə və nəhayətdə vədəsiz ölümə rəvac verən vətən dərdindən başqa, həm də bir gözükölgəlilik, "təcavüzə uğramış" yarlığı ilə yaşamaq məcburiyyəti idi. İndisə nə xoş – həmin karvan geri dönür, doğrudur, minlərlə insan bu xoşbəxt anların həsrətiylə gözlərini əbədi yumdu, amma onlarında ruhu Qarabağ üzərində dolaşmaqdadır.

**Xatırladaq ki, Cocuq Mərcanlı kəndi 1994-cü ilin yanvar ayında ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin uğurlu Horadiz əməliyyatı zamanı işğaldan azad edilib. Lakin ətraf yüksəkliklərdə Ermənistan ordusunun mövqe tutması kəndin ərazisini faktik olaraq təhlükə altında saxlayırdı. 2016-cı il aprelin 2-də Azərbaycan Silahlı Qüvvələrinin əks həmləsi nəticəsində Lələtəpə yüksəkliyinə sahiblənməsi ilə Ermənistan ordusunun kəndə, oradakı mövqelərimizə yaratdığı təhlükə aradan qalxdı.**

Artıq Cocuq Mərcanlıda sakinlərin asayiş içində yaşaması üçün şərait var. Ələ keçirilmiş yüksəkliklərdən düşmənin işğal altında saxladığı ərazilərdəki mövqeləri tam nəzarətə götürülüb, təxribat imkanları vaxtında aşkarlanaraq zərərsizləşdirilir. Eyni zamanda aprel döyüşlərinin nəticələri və ordumuzun qüdrəti insanlara öz doğma yerlərinə qayıdıb əmin-amanlıq şəraitində yaşamalarına stimul verir. Cənab Prezidentin ötən ilin noyabr ayında Füzuli rayonuna səfəri zamanı Lələtəpə yüksəkliyində və işğaldan azad edilmiş digər ərazilərdə hərbçilərlə, sakinlərlə görüşü də onlarda inamı artırıb.

Qayıdış planına bəlkə də ən çox sevinən Həziyevlər ailəsidir. Onlar ermənilərin talan edib yandırdığı kənddə 23 ildir ki, qonum-qonşusuz yaşayır. Həm də bütün çətinliklərə rəğmən... 80 yaşlı Minara nənə burada 9 uşaq böyüdüb, ikisi dünyasını dəyişib, 5-i müxtəlif rayonlarda köçkün həyatı yaşayır, iki övlad isə Cocuq Mərcanlıda nənənin yanında qalırlar. Minara Həziyeva hamını öz torpaqlarına dönməyə çağırır: "Hər kəs gəlsin. Kim gəlsə, qızımdır, gəlinimdir. Millət doğma torpağa qayıtsın".

Erməni quldurlarının atdığı mərmilərin qəlpələri evin hasarını dəlik-deşik edib. Buna baxmayaraq, şəxsi təsərrüfatını yaradan Oqtay, həyətyanı sahəsində quşçuluq, arıçılıq, heyvandarlıq və əkinçiliklə məşğuldur: "Nə qədər çətin və təhlükəli olsa da, Azərbaycan ordusuna və dövlətinə güvənərək yaşamışıq. Əvvəllər Lələtəpə yüksəkliyi ermənilərin nəzarətində idi. Bu da ətraf ərazilər və kəndlərdə yaşamağı faktiki qeyri-mümükün etmişdi. Bəzi analar balalarına layla çaldığı kimi, sanki güllə səsi də bizə layla çalırdı. Atışma qorxulu hal alanda yaşlı anamı, yoldaşımı yaxınlıqdakı qamışlıqda gizlədirdim. Elə günlər olub ki, inandırım sizi, paltarla yatmışam. Amma indi çox rahatam. Silahlı qüvvələrimiz keçən ilin aprelində strateji yüksəklikləri azad etməklə, Cocuq Mərcanlıya nəzarəti ələ aldı. Bu gün kənd ərazisində yaşamaq təhlükəli deyil, çünki Lələtəpədə Azərbaycan bayrağı dalğalanır. Allahın köməyi və prezident İlham Əliyevin səyi nəticəsində Qarabağ və ətraf rayonlar da işğaldan qurtular".

Hazırda azğın düşmənin ərazidə törətdiyi fəsadlar aradan qaldırılır – Cocuq Mərcanlının minalardan təmizlənməsi prosesi başa çatmaq üzrədir. Artıq müxtəlif qurumlar kənddə kommunikasiya sisteminin, konkret poçt filialı, ATS və s.-nin bərpası məqsədilə fəaliyyətə başlayıb. Bütün dünyanın baş verənləri öz gözləri ilə görüb obyektiv qiymət verməsi məqsədilə bir qrup xarici ölkə jurnalistlərinin həmin bölgəyə gedişi reallaşdırıldı, ölkəmizdə akkreditasiya olunmuş diplomatların da səfəri planlaşdırılır.

24 yanvar 2017-ci il tarixli sərəncamdan sonra ermənilər arasında vahimə daha da güclənib. Onlar güclü ordumuzun Ermənistan silahlı qüvvələrinə verdiyi aprel dərslərinin təkrarlanacağından ciddi narahatlıq hissi keçirməkdədirlər. Elə bu səbəbdəndir ki, xarici himayədarlarına əvvəlkindən daha çox sığınmaqla əsas istəkləri cəbhədə yeni mümkün hərbi toqquşmaların qarşısının alınmasıdır. Amma bu da çətin ki düşmənə uzun müddət dəstək olsun. Çünki Azərbaycan işğal altındakı ərazilərini, lazım gələrsə, güc yolu ilə azad etmək hüququndan istənilən vaxt bəhrələnə biləcəyini ən yüksək səviyyədə bəyanlayıb. ❖

İlham Fətəliyev

